VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2025: 41(3), ss. 103-104
Telif Haqqı©Varlıq Dergisi

Sunuş:

Sevgili oxucular;
Varlıq dərgisinin ikinci dönəminin 41-ci sayısını sizinlə paylaşmaqdan mutluluq duyuruq.

Bu sayımızda da bir-birindən dəyərli məqalələrə yer verilmişdir. Dərgimizin qurucusu mərhum Prof. Dr. Cavad Heyət'in doğumunun 100-cü il dönümü münasibəti ilə bu ilin çeşidli sayılarında onun haqqında yazılara yer verilməsiylə birlikdə, ilin son sayısını, yəni bir sonrakı sayımızı tamamı ilə Dr. Cavad Heyət xatirəsinə armağan edəcəyik. Ancaq gələn yazıları birikdirməmək və gözlətməmək adına bir neçə məqaləni də əlinizdəki sayıda təqdim edirik.

Dr. Gülnar Əqiq Cəfərzadə "Cavad Heyət'in Elmi Araşdırmalarında 13-14-cü Əsrlər Azərbaycan Türkcəsi Ədəbi Dili" başlıqlı məqaləsində Dr. Cavad Heyət'in Türkoloji alanındakı əsərləriini ələ alaraq, Azərbaycan Türkcəsi ədəbi diliylə ilgili araşdırmalarını ələ almışdır.

Varlıq dərgisi haqqında bəlkə də ilk doktora tezini yazan Doç.Dr. Nəzakət İsmayılova da araşdırmalarının davamı və yığcam nəticəsi olaraq Dr. Cavad Heyət'in həyatı və əsərlərini "Şərəfli Ömrün Anlamlı İlləri və Dəyərli Əsərləri" başlıqlı məqalədə dəyərləndirmişdir.

Əslən Afqanistan Türklərindən olan və orada Türkoloji alanında bilimsəl çalışmalar aparan Məzhəruddin Ləbib, Teymurlular dönəmində Türk ədəbiyatını, sənətini və bilimini ayrıntılı bir şəkildə incələyərək, "Şahrux Mirzə, Baysunqur Mirzə və Sultan Hüseyn Bayqara Dönəmində Bilim, Sənət və Ədəbiyat" başlıqlı məqaləsini sunmuşdur.

Ankara'da Türk dili və ədəbiyatı üzrə doktora yapmaqda olan Ruya Qassab isə İran və Iraq Türklərinin nağıl və əfsanələrini qarşılaşdıraraq, ortaq ünsürləri və yapılarındakı fərqlilikləri yığcam bir şəkildə ortaya qoymuşdur.

Azərbaycan tarixinin önəmli dönəmlərindən olan və bu bölgənin siyasi bir vahid və ya vahidlər kimi ortaya çıxmasının etkilərini və yansımalarını, eyni

zamanda qonşu dövlətlərlə ilişilərini yansıdan Azərbaycan xanlıqlarının qısa tarixi, Ankara Üniversitesi Çağdaş Türk Ləhcələri və Ədəbiyatları Bölümü öyrəncisi Efe Balkan tərəfindən qələmə alınmışdır.

Elmi məqalələrin ardından Iraq Türklərinin önəmli şəxsiyətlərindən olan, ədəbiyat sahəsində çox dəyərli əsərlər meydana gətirən Prof. Dr. Muhamməd Ömər Qazancı'nın Urmu Gölü üçün yazdığı "Yağmur Yağmaq Üzrə" adlı şeirinə yer verilmişdir.

Dərgimizin bu sayısının da siz dəyərli oxuculara yararlı olmasını umuruq.

Dr. Mehmet Rıza HEYET
Varlıq Dergisi Baş Editörü